**«Böyük Bakı»nın İnkişaf Planının ictimai müzakirələri keçirilir**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşkilatçılığı ilə Böyük Bakının Regional İnkişaf Planının (BBRİP) konseptual sxemi ilə bağlı ictimai müzakirələr başlanmışdır. Noyabrın 2-də komitənin təşkil etdiyi tədbirdə mətbuat işçiləri, ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Abbas Ələsgərov 2030-cu ilədək həyata keçiriləcək layihəyə dair müzakirə və təkliflərin 2013-cü ilin sonunadək yekunlaşdırılacağını bildirmişdir. A.Ələsgərov qeyd etmişdir ki, koordinatorlugunu Bakı Dövlət Layihə İnstitutunun həyata keçirdiyi işlər, əsasən, tamamlanmışdır.

İnstitutun direktoru İlqar İsbatov son 17 ay ərzində rəhbərlik etdiyi qurumun mütəxəssisləri tərəfindən görülən işlərlə bağlı tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. O bildirmişdir ki, BBRİP-də başlıca olaraq mövcud vəziyyət, imkanlar, planlaşdırma üzrə yanaşma metodları, inkişaf modeli üzrə alternativlərin müəyyənləşdirilməsi kimi məsələlərə xüsusi yer ayrılmışdır.

BBRİP layihəsinə Bakı şəhərinin 11 rayonu, Abşeron rayonunun bir hissəsi, Sumqayıt şəhəri, Hacı Zeynalabdin və Corat qəsəbələri daxildir. Əvvəlcə bu ərazilərin 20 il ərzindəki artım dinamikası araşdırılmış, region üzrə əhalinin sayı proqnozlaşdırılmışdır. Hesablamalara görə, 2030-cu ilədək həmin ərazidə əhalinin 3 milyon 500 minədək artımı gözlənilir. İ.İsbatov məruzəsində bu sahədə imkan və potensiallara toxunmuş, layihənin inkişaf modeli ilə bağlı 4 alternativ variantın təklif olunduğunu söyləmişdir.

Layihənin yerli iqtisadi inkişaf bölməsinin icraçısı, Harvard Universitetinin professoru xanım Kaya Miller bildirmişdir ki, Azərbaycanda əhalinin artım sürəti BBRİP layihəsinin işində müəyyən problemlərin yaranmasına gətirib çıxarmışdır. ABŞ-dan olan mütəxəssis qeyd etmişdir ki, Azərbaycan uzun illərdir ki, ÜDM-in həcminə və iqtisadi artım sürətinə görə dünyanın lider ölkələrindən biridir və bu iqtisadi uğur istər-istəməz paytaxt Bakının daha da böyüməsinə və sürətlə inkişafına şərait yaratmışdır. Bakıda neft və qaz sənayesinin güclü inkişafı, son 20 ildə yüzlərlə yeni müəssisələrin yaradılması, yeni iş yerlərinin açılması paytaxtda insanların sayının sürətlə artmasına gətirib çıxarmışdır. Lakin əhali artdıqca Bakının planlı şəkildə böyüməsinə, inkişaf etməsinə daha çox ehtiyac duyulur. Odur ki, tikinti, turizm, kənd təsərrüfatı, yerli sənaye, təhsil, nəqliyyat, xidmət sahələrində əhalinin məşğulluğu istiqamətində daha ciddi tədbirlər görülməli, kiçik və orta sahibkarlığın inkişafına diqqət artırılmalıdır.

Tədbirdə çıxış edən digər xarici məsləhətçilər, respublikanın tanınmış memar və inşaatçıları Böyük Bakının Regional İnkişaf Planına dair fikir mübadiləsi aparmış, müxtəlif təkliflər irəli sürmüşlər.

Rəşad SADIQOV